# Qazilərə medallar təqdim edildi




Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Qəbələ rayonundan olan qazilərə medalların təqdim olunması ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsinin nümayəndələri tərəfindən Vətən müharibəsi zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Vətən müharibəsi qazilərinə medallar təqdim olunmuşdur. Qazilər onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib



26 fevral 2022-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xocalı Soyqırımının 30-cu ildönümü ilə bağlı soyqırım qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilmişdir. Xüsusi ayrılmış ərazidə Qəbələ könüllüləri tərəfindən şam ağacları əkilmişdir.







# Reydlər davam edir

Koronavirus (COVİD-19) pandemiyasının yayılması əleyhinə əhali arasında maarifləndirmə işlərinin aparılması məqsədilə rayon icra hakimiyyətində yaradılmış mobil qrup üzvləri tərəfindən rayon ərazisində mütəmadi reydlər keçirilir. Reydlər zamanı sakinlərlə ictimai və qapalı yerlərdə sosial məsafənin gözlənilməsi, tibbi maskalardan, dezinfeksiyaedici məhlullardan istifadənin, sanitar-gigiyena qaydalarına riayət etməyin, koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən vaksinləşmə prosesindən kənarda qalmamanın vacibliyinə dair geniş təbliğat-izahat və maarifləndirmə işləri aparılır. Həmçinin əhaliyə Fevralın 15-dən etibarən Nazirlər Kabinetinin Qərarına əsasən COVID-19-a qarşı peyvəndin 2-ci dozasının üzərindən 6 ay keçmiş şəxslərin "Peyvənd sertifikatı"nın etibarlı hesab olunmadığı izah edilmiş, "Peyvənd sertifikatı" tələb olunan sahələrdə çalışan bir sıra iş və xidmət sahələrinin fəaliyyətindən istifadə edən yaşı 18-dən yuxarı şəxslərin peyvəndin 2-ci dozasının üzərindən 6 ay sonra mütləq "buster" doza ilə peyvəndlənməsi tövsiyə olunmuşdur.

# Qisas qiyamətə qalmadı

Göy üzünün al qana qərq olduğu, zamanın, vaxtın dayandığı, insanlığın məhv edildiyi gecə... 1992-ci il fevralın 25-dən 26-na keçən gecə... Vəhşətin, dəhşətin, barbarlığın, vandallığın, zülmün yaşandığı gecə... Kar, kor, lal dünyanın gözü qarşısında növbəti insanlıq dramının, növbəti misli görünməmiş faciələrdən birinin yaşandığı, yaşadıldığı, ah-nalələrin göylərə qərq olduğu gecə. İnsanlıqdan nəsibini almamış, qandan bəslənmiş ermənilərin, onların şimallı, cənublu, qərbli, şərqli qanlı, məkrli havadarlarının azərbaycanlılara, Xocalıya və xocalılılara qarşı amansız qətliamı, soyqırımı aktı. Bütöv bir şəhərin yerlə-yeksan edildiyi, yüzlərlə günahsız insanın amansızcasına qətlə yetirildiyi, süngüyə keçirildiyi, şikəst, əlil edildiyi, əsir götürüldüyü, itkin düşdüyü qarlı-boranlı bir qış gecəsi-Xocalı soyqırımı, Xocalı qətliamı.

İndi də o gecəni, o günü insan gözləri önündə canlandırarkən, bədənindən dəhşətli bir sızıltı keçir. Qışın bir o qədər sərt keçmədiyi vaxtda belə təbiətin soyuqluğuna dözə bilməyib isti evlərimizə tələsdiyimiz zamanda bəs o insanlar, minlərlə günahsız xocalılılar necə dayanıblar-o şaxtalı-qarlı gecənin zülümünə?.. Bunları düşündükcə dəhşətə gəlməmək mümkün deyil. Axı necə dəhşətə gəlməyəsən, necə qəzəblənməyəsən? Xocalı bütövlükdə insanlığın faciəsi, üz qarası, qara ləkəsidir!

Həmin müsibətli gecənin şahidi olmasam da, ötən bu illər hər bir azərbaycanlını Xocalı acısı ilə yaşamağa və onu heç bir zaman unutmamağa sövq etdi. Geridə qalan 30 ilin hər günü, hər ayı, hər ili bizlərə uşaqların, qocaların, qadınların, əliyalın insanların ermənilər tərəfindən amansızlıqla qətlə yetirildikləri acısını yaşatdıqca qəlbimizin dərinliklərində körpəsindən qocasına qədər hərkəsin qisas hissini daha da alovlandırırdı. Mənfur düşmən bu dəhşətli gecədə çox körpələrin hələ Qarabağın əsrarəngiz gözəlliklərini görmədən, doyunca ana, ata sevgisi yaşamadan canına susadı, onları beşikdə süngüyə keçirərək köməksiz canlarına qıydı. Həmin gecə çox uşaq atasız, anasız qaldı. Bəli bu gün həmin anların acı xatirəsi ilə yaşayıb, valideynlərini itirmiş gənclərimiz var ki, onların qəlbində Xocalı başqa bir ağrı, başqa bir acıdır. Bu acını sözlərlə ifadə etmək, canlandırmaq bir yazıçı üçün, bir rəssam üçün nə qədər çətindirsə bir gənc olaraq mənim üçün ondan daha çətindir. Tarixin bəzi xalqlara yaşatdığı genosidi, faciəni yaşayan mənim xalqım da ötən 30 il müddətində yaşadığı acıları dünya dövlətlərinə duyurmağa çalışdı. Amansız düşmənin qəlbimizdə açdığı yaranı, günahsız körpələrimizin qəddarcasına alınmış canlarını dünya görsün deyə, 30 il ədalət savaşı apardıq.



Üzərindən 30 il (26 fevral 1992) keçməsinə baxmayaraq, hələ də Xocalı soyqırımının qatilləri azadlıqda gəzirlər. Özlərini insan hüquqlarının müdafiəçisi kimi göstərən beynəlxalq təşkilatlar hələ də təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa, bəşəriyyətə qarşı törədilən soyqırımın iştirakçıları "Qarabağ klanı"nın cəzalandırılması üçün heç bir addım atmayıb. Əvəzində Sarkisyan, Köçəryan cütlüyünə beynəlxalq təşkilatlarda, ən ali tribunalarda söz haqqı verildi.

Amma Azərbaycanın qisası qiyamətə qalmadı. Xüsusilə son 18 il ərzində atılan addımlar Azərbaycanın o qisas gününə hazırlıq məqsədi daşıdı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən "Dəmir yumruq" hərbi əməliyyatında təkcə otuz illik yox, XX əsrin əvvəllərindən bəri bir neçə dəfə xalqımıza qarşı soyqırım və deportasiya siyasəti yürüdən, tarixi torpaqlarımızda "böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan ermənilərdən bir əsr boyu törətdikləri azğınlıqların qisası alındı. Onlardan fərqli olaraq biz döyüşü mülki insanlarla, qocalarla, uşaqlarla, qadınlarla aparmadıq. Necə deyərlər, mərdi-mərdanə vuruşduq, qorxmadan, çəkinmədən... Halbuki insanlıq, humanizm kimi ali dəyərlərdən çox-çox uzaq olan düşmən 1992-ci ildə Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakinini qətlə yetirdi, 8 ailəni tamamilə məhv etdi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən güllələsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Başqa bir tarixi fakt isə odur ki, ermənilər bu qırğınları törədən vaxt ölkəmiz naşı rəhbərlərin əlində idi. Siyasi anarxiya, hakimiyyət davası, vətəndaş müharibəsinin fonunda orduda vahid komandanlıq da yox idi, pərakəndəlik, hərcmərclik baş alıb gedirdi. Halbuki, silahlı birləşmələrdə nizam-intizam, komandir sözünün aliliyi ən vacib amildir.

Müstəqillik illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu prosesi Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yeni mərhələyə çatdırıldı. Azərbaycan iqtisadi gücünü həm insan kapitalına, həm də hərb sahəsinə yönəltdi. Ona görə insan kapitalına ki, müstəqillik illərində yetişən gənclik vətənpərvər ruhda tərbiyə aldı, dostunu, düşmənini tanıdı. Seçdiyi peşədən, ixtisasdan, sahədən asılı olmayaraq, hər kəs Ali Baş Komandanın "İrəli" əmrinə müntəzir dayandı. "Ordun varsa, yurdun var",- deyib ordumuzu gücləndirdik. Ən müasir atıcı silahlarla, pilotsuz uçuş aparatları, raket və artilleriya sistemləri ilə... Və ən əsası ordunun sıralarını vətənpərvər zabit və əsgər heyəti gücləndirdi. Azərbaycan əsgəri azğınlaşan, yerini bilməyən, işğal olunmuş torpaqlardan çıxmaq əvəzinə, beynəlxalq tribunalarda yeni ərazi iddiaları ilə çıxış edən düşmənə layiqli cavab vermək, döyüşdə Zəfər qazanmaq üçün təlimlərdə tər tökdü, peşəkarlaşdı, ustalığını hər keçən gün artırdı. Bunu sözdə yox, əməldə də sübut etdi.

İnanırıq və qəti əminik ki, Xocalımız da ən qısa zamanda özünün əsl sahibləri ilə xocalılılarla görüşəcəkdir. Biz Xocalını da bütövlükdə qurub-yaradacaq, yenidən Qarabağımızın ayrılmaz, dilbər guşəsinə çevirəcəyik! Bax o zaman, Xocalı şəhidlərimizin didərgin ruhları rahatlıq tapmış, sevinmiş olacaq! Bu qələbəni bizlərə yaşadan, Xocalılıların qəlbində illər boyu sağalmaz yaraya çevrilən vətən həsrətinə son qoyan, minlərlə günahsız körpənin, qadının, qocanın intiqamını alan hər bir Azərbaycan oğlunun əbədi yaşar ruhu qarşısında xalq olaraq borcluyuq. İllər öncə öz tarixi torpağından zorla çıxarılan qəhrəman oğullarımız, illər sonra öz ata-baba yurdlarına üç rəngli vətən bayrağını sancaraq, Qarabağ Azərbaycandır dedilər və bütün dünyaya xüsusən də, bu illər ərzində mənfur düşmənin havadarı olanlara əsl tarix dərsi keçdilər. Bəli biz müstəqil və əzəmətli bir xalq olaraq öz Qisasımızı Qiyamətə saxlamadıq.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**